**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ZƏHRA BARATƏLİ QIZI HƏSƏNİ QARATƏPƏ**

# İNSANIN MAHİYYƏTİ PROBLEMİ MƏŞŞAİ MƏKTƏBİ BAXIMINDAN

İxtisas: 7207.01 – Sosial fəlsəfə
7210.01 – Fəlsəfə tarixi

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

## AVTOREFERATI

**Bakı - 2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: *fəlsəfə üzrə elmlər doktoru, professor*
**Həmid Rza oğlu İmanov**

Rəsmi opponentlər: *fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Mina Telman qızı Hacıyeva**

*fəlsəfə üzrə fəlsəfə doktoru*
**Əmanət Allahşükür qızı Paşazadə**

Aparıcı təşkilat: **Azərbaycan Dövlət Neft Akademiyası**
**(«Fəlsəfə» kafedrası)**

Müdafiə "_30_" _04__" 2013-cü il saat "____" da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 31, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» _____________ 2013-cü ildə göndərilmişdir.

**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq**
**İnstitutunun nəzdindəki D.01.115**
**Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru: Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qərb fəlsəfi fikri tarixində insan mövzusunun tədqiqinə bütün dövrlərdə böyük elmi maraq göstərilmişdir. Dünya fəlsəfi fikrində həmin problemə maraq daha da artmaqdadır. Bu, hər şeydən əvvəl müasir ictimai inkişafda insanın rolunun durmadan artması, onun üzləşdiyi qlobal problemlərin aradan qaldırılması zərurəti ilə şərtlənir. Hər iki amil dialektik vəhdətdə çıxış edərək, şəxsiyyətin adekvat nəzəri mənalandırılmasına, onun mahiyyəti potensialının aşkarlanmasına labüd tələbat yaradır. Bu məqsədə nail olmaq prosesində müasir dövrün geniş elmi informasiya mənbələrini və fəlsəfi təfəkkür mədəniyyətini nəzərə almaqla yanaşı, həm də keçmiş fəlsəfi irsdə, xüsusilə orta əsrlər İslam Şərqi nəzəri fikrində insan problematikası ilə bağlı ideyaların dərindən araşdırılması son dərəcə zəruridir. Analitik təcrübə göstərir ki, fəlsəfi təhlilin məqsədi obyektiv həqiqəti aşkarlamaq olduğundan o, zaman və məkan hüdudları ilə məhdudlaşmır. Onun əsas qayəsi bu və ya digər təlimin xronoloji müddəti ilə deyil, aid olduğu problemin mənasını və mahiyyətini nə dərəcədə dərin açması ilə müəyyən olunur. Bu kontekstdə yanaşdıqda məşşailikdə insan mahiyyatının tədqiqinin aktuallığı aşağıdakı məqamlarla izah etmək mümkündür:

Hər şeydən əvvəl, qeyd edilməlidir ki, X-XIII əsrlərdə Yaxın və Orta Şərqin də ictimai fikrində geniş yayılmış nüfuzlu fəlsəfi cərəyan olan Şərq peripatetizmində əksini tapmış antropoloji müddəaların bir çoxu bu gün də çox dəyərlidir. Bu fəlsəfi təlimdə ruh və bədənin münasibəti, insanın mahiyyəti, onun varlığının ontoloji, qnoseoloji və aksioloji səpkiləri, müdrik həyat tərzi keçirməyin, mənəviyyatı saflaşdırmağın və naqisliklərdən xilas olmağın yolları və vasitələri haqqında bir çox qiymətli müddəalar irəli sürülmüşdür. Məşşai mütəfəkkirlərin baxışlarında dini-fəlsəfi xarakterli ideyalar ilə yanaşı, rasional elmi-fəlsəfi məzmuna malik cəhətlər çoxdur və onlar bu gün də aktuallığını saxlamaqdadır.

İkinci, məşşailik orta əsrlərdə müsəlman Şərqinin mənəvi-ideoloji həyatında böyük təsir gücünə malik məktəb olduğu üçün, onun antropologiyasının dərindən öyrənilməsi, həmin dövrün ümumfəlsəfi düşüncəsi, mədəniyyəti və mənəvi dəyərləri haqqında dolğun təsəvvürlərin mənimsənilməsində misilsiz əhəmiyyətə malikdir.



Üçüncü, məşşailiyin insan mahiyyatində irəli sürülən elmi müddəalar sonrakı dövrlərin mədəniyyətinin, ictimai şüuru və fəlsəfəsinin formalaşmasında mühüm ideya və nəzəri mənbə olmuşdur. Məşşailiyin antropoloji ideyaları, xüsusilə də kamil insan idealı, onun həyata keçirilməsinin yolları və vasitələrinin axtarışına yönəlmiş uğurlu cəhdləri, sonrakı fəlsəfi təlimlərdə dərin iz buraxdığıdan, onların təhlili, sonuncuların insanın mahiyyətinə yanaşmalarına dair irsinin düzgün qiymətləndirilməsi baxımından önəmlidir.

Dördüncü, sözügedən problemin tədqiqi, orta əsrlər Şərqində və onun hüdudlarından kənarda böyük təsir gücünə malik və dərin iz buraxmış ərəb-müsəlman sivilizasiyasının tarixdə yeri və rolunun obyektiv qiymətləndirilməsi baxımından da aktuallıq kəsb edir. Belə ki, orta əsrlərdə Qərbdə «ilahiyyatın kənizinə» çevrilmiş fəlsəfə tənəzzül keçirdiyi halda, Şərq fəlsəfi düşüncəsi dünya fəlsəfə tarixinə əhəmiyyətli töhfələr vermişdir. Qərbdə yalnız feodalizmdən kapitalizmə keçid dövründə (XV-XVII əsrlərdə) yaranmış intibah Şərqdə çox-çox əvvəl – XI-XIII əsrlərdə meydana gəlmişdir. Buna baxmayaraq, rus və avropasentrist mövqe tutan tədqiqatçılar orta əsrlər Şərqinin mənəvi fəlsəfi irsinə mənfi, qeyri-obyektiv münasibət bəsləmişlər. Son onilliklərdə bu problemə nəzərən ədalətin bərpası istiqamətində tədqiqatlarda əhəmiyyətli addımlar atılsa da, sözügedən dövrdə Şərqdə işlənilib hazırlanılmış, müzakirə olunmuş və irəli sürülmüş problemlərin öz layiq olduğu elmi əhəmiyyətini almadığı hallar hələ tam aradan qalxmamışdır. Qeyd olunan kontekstdə də XI-XIII əsrlərin fəlsəfi irsinin dərindən araşdırılması, həmin dövrdə geniş yayılmış fəlsəfi cərəyanlardan olan Şərq məşşailiyin insan mahiyyatının araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə dünya fəlsəfi fikrində orta əsr Şərq fəlsəfəsi xüsusi mərhələni təşkil edir. Qərbdə «cəhalət və nadanlıq» dövrü kimi səciyyələndirilən orta əsrlər Şərq ölkələrində işıqlı fikirlərin, elmi biliklərin çiçəklənmə dövrü olmuşdur. Şərq filosofları, mütəfəkkirləri dövrün mənəvi həyatını əks etdirən dolğun məzmunlu əsərlərində dini-fəlsəfi təlimlərlə yanaşı, bitkin elmi-fəlsəfi konsepsiyalar irəli sürmüşlər. Məhz orta əsrlərdə Şərq filosoflarının özünəməxsus elmi-fəlsəfi dünyagörüşü çərçivəsində formalaşmış zəngin irs XII əsrdən etibarən Qərb ictimai fikrində önəmli yer tutaraq sonralar «Renesans mədəniyyətinin meydana gəlməsində

mühüm nəzəri mənbələrdən olmuş, yeni dövr Avropasında elmi-fəlsəfi fikrin tərəqqisinə təkan vermişdir»[1].

Fəlsəfənin predmet problemi olan İnsan-Dünya münasibətləri antropoloji kontekstdə özünün başlıca ifadəsini mənəvi ilə maddinin münasibətlərində tapır. Əslində insanın real təbiətində təzahür bu iki amil bir-birilə ayrılmaz əlaqədə və vəhdətdədir. Həmin vəhdətin səviyyəsi, fərdin maddiləşmiş mənəvi dünyasının və bütövlükdə onun inkişafının universal və önəmli meyarı rolunu oynayır. Təsadüfi deyildir ki, bütün dövrlərdə insanı tədqiq edən mütəfəkkirlərin elmi yaradılıcılığının konseptual qayəsi olan bu məsələ orta əsr Şərq peripatetik fikirində də prioritet yer tutmuşdur. Orta əsrlərin insan baxışlarının əsas səciyyəsini əks etdirən aşağıdakı fikri həm də Şərq peripatetik təlimləri haqqında söyləmək olar: «Orta əsrlərdə məhz nəfsin əql vasitəsilə məhdudlaşdırılması, idarə olunması, insanın düşüncəli bir varlıq olaraq öz bədəni və instiktləri üzərində qələbəsi uğrunda mübarizə getmiş və bu proses fərdi miqyasdan çıxaraq bir ruhani hərəkat səviyyəsinə qalxmışdır»[2]. Bütövlükdə Şərq təfəkkürü üçün səciyyəvi olan varlığın və insanın dərkində hissi-estetik, hissi-empirik və metaforik yanaşma metodu, məşşailikdə də üstünlük təşkil etmiş və bu təlim insan-dünya münasibətlərinin dərkində mühüm amil olan bütövlüyü və sinkretikliyi qoruyub saxlamışdır.

Müsəlman Şərqi mütəfəkkirlərinin yaradıcılığının elmi-fəlsəfi qiyməti obyektiv olaraq, antik təlimləri (birinci növbədə Aristoteli) mənimsəmələri və şərh etmələri dərəcəsi ilə ölçülür. Bu meyardan yanaşdıqda, qeyd edilməlidir ki, Şərq peripatetikləri antik peripatetizmi və neoplatonçuluğu heç də təkrarlamamış, əksinə bu təlimləri inkişaf etdirmiş və təkmilləşdirmişlər. Avropada tanınmış müsəlman filosoflarının çoxu nəinki təbiət, hətta nəfs və əql haqqında fikirlərin Allah ideyası ilə qarışıq salınmasına həssas münasibət göstərirmişlər.

**Problemin işlənmə dərəcəsi.** Təhlil etdiyimiz problem üzrə müstəqil dissertasiya işi yazılmasa da, mövzunun bəzi aspektləri fəlsəfi fikirdə dəyərincə işlənmiş və biz onlardan yeri gəldikcə bəhrələnmişik.

İnsanın ruh və cism haqqında Qərb və islam fəlsəfi fikrində çoxlu tədqiqatlar aparılmış və problemlə bağlı müxtəlif baxışlar (o cümlədən peripatetik) irəli sürülmüşdür. Qeyd edək ki, fəlsəfə tarixində elə bir cərəyan, mütəfəkkir və ya tədqiqatçı olmamışdır ki, o, insan probleminin təhlilinə müraciət etməsin. İstər təbiətşünaslıq, istərsə də cəmiyyətşünaslıq sahəsində elmi fikrin inkişafı sürətləndikcə, insanın mahiyyətinin dərin qatlarının tədqiqi daha intensiv aparlımış, nəticədə mövzu ilə bağlı bir çox əsərlər işıq üzü görmüşdür. Dissertasiya işində insan probleminin fəlsəfi aspektdə öyrənilməsi üçün dünya fəlsəfə elminin görkəmli nümayəndələrinin əsərlərinə müraciət edilmişdir. Məşşailiyin insan mahiyyatının öyrənilməsində əsas və ilkin mənbə rolunu məhz məşşai müəlliflərinin əsərləri oynayır. Doğrudur, Şərq peripatetiklərinin nəzəri irsi tam şəkildə bu günə gəlib çatmamışdır, lakin onların qorunub saxlanılan əsərləri, bu cərəyanın insana dair baxışlarının təhlilində misilsiz əhəmiyyətə malikdir. Buna görə də biz problemin tədqiqində Əl-Kindinin, Əl-Fərabinin, İbn Sinanın, Ə.Bəhmənyarın, Nəsirəddin Tusinin və S.Urməvinin öz əsərlərinə və onların irsinin tədqiqi ilə bağlı araşdırmalara (Избранные произведения мыслителей, стран Ближнего и Среднего Востока (М., Наука 1961); (Из философского наследия народов Ближнего и Средного Востока. (Отв. ред. И.М.Муминов. Ташкент Фан 1972) və «Şərq fəlsəfəsi» IX-XII əsrlər (tərtibçi Z.C.Məmmədov) (Bakı, BDU nəşriyyatı, 1999) arxalanmışıq .

Problemin elmi-nəzəri araşdırılmasında Şərq fəlsəfəsi tarixinə (o cümlədən Azərbaycan) və təfəkkür tərzinə müasir sivilizasiya meyarlarından yanaşmanın metodoloji əsaslarının işlənib hazırlandığı tədqiqatlar dissertasiyanın hazırlanmasında mühüm örnək olmuşlar. Bu mənbələr içərisində Z.Quluzadənin «XIII-XVI əsrlərdə Şərq fəlsəfəsinin inkişafı qanunauyğunluqları və Qərb-Şərq problemi» (Bakı, 1983), S.Xəlilovun «Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər» (Bakı, 2004) kitabları xüsusi qeyd olunmalıdır.

Azərbaycan fəlsəfəsi tarixinin tanınmış tədqiqatçıları, Z.Quluzadənin «VII-XVI əsrlər Azərbaycan fəlsəfi tarixindən» (rusca) (Bakı, 1992) monoqrafiyasında, S.Rzaquluzadənin «Ə.Bəhmənyar» Azərbaycan fəlsəfəsi tarixi, I cild (Bakı, 2002, 230-268), «Nəsirəddin Tusi» Azərbaycan fəlsəfəsi tarixi, II cild (Bakı, 2008, 129-171) və digər araşdırmalar məşşailik fəlsəfəsini təmsil edən ayrı-ayrı mütəfəkkirlərinin insan haqqında baxışlarının öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

[1] Şərq fəlsəfəsi (IX-XII əsrlər). Tərtibçi Z.C.Məmmədov. Bakı, BDU, 1999, s. 26.
[2] Xəlilov S.S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007, s. 70.

Məşşailiyin insan mahiyyatının müxtəlif aspektləri Z.Məmmədovun «Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir (Bakı, 1978) «Bəhmənyarın fəlsəfəsi» (Bakı, 1983); «Siracəddin Urməvi» (Bakı, 1990), «Azərbaycan fəlsəfəsi tarixi» (Bakı, 1994) və sair əsərlərində geniş nəzərdən keçirilmişdir. Məşşaizmin XIII əsr təmsilçisi N.Tusinin fəlsəfəsi və etik baxışları A.Məmmədovanın «Nəsirəddin Tusinin dünyagörüşü» (Bakı, 2000) monoqrafiyasında ətraflı araşdırılmışdır.

Tədqiq etdiyimiz problemə yaxınlıq baxımından Şərq peripatetizminin mühüm qaynaqlarından olan zərdüştlüyün və islamın dini-fəlsəfi antropologiyasının araşdırılmasında K.Əzimovun xidməti xüsusi qeyd olunmalıdır. Onun «Azərbaycan mütəfəkkirləri insan haqqında» (Bakı, 1986) kitabında «Zərdüştlüyün və islamın dini-fəlsəfi doktrinalarında insan problemi» (Bakı, 2009) adlı monoqrafiyasında Yaxın və Orta Şərqin iki nəhəng dininin doktrinalarında insan, onun varlığı və mənəvi keyfiyyətləri problemlərinin tədqiqi fonunda peripatetizmin antropoloji konsepsiyasının əsaslarının tədqiqinə geniş yer verilmiş, Şərq nəzəri fikrinin başlıca idealı olan kamil insanın formalaşmasında onların rolu araşdırılmışdır.

Orta əsrlərin ərəbdilli Şərq fəlsəfəsinin ayrı-ayrı nümayəndələrinin fəlsəfi irsinə dair Ə.Zəkiyevin «Bəhmənyarın fəlsəfi görüşləri» (Bakı, 1958), Ə.Əhmədovun «Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi» (Bakı, 1980) (rus dilində), H.İmanovun və A.Əhədovun «Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri» (Bakı, 2008) əsərləri, araşdırdığımız problemin öyrənilməsinə mühüm töhvədir.

«Azərbaycan fəlsəfəsi tarixində» (rus dilində, I cild) Şərq peripatetizminin məşşailiyin təhlilinə mühüm yer ayrılmışdır. Burada qeyd edilir ki, Azərbaycanda peripatetik fəlsəfənin inkişaf xüsusiyyətləri, hər şeydən əvvəl, onun mədəniyyətinin ümumi səviyyəsi, xüsusilə dövrün elmin səviyyəsilə sıx əlaqədə olmuşdur. Bəhmənyarın şəxsində azərbaycan peripatetik fəlsəfəsi (XI-XII əsrlər) Şərq peripatetizmi fəlsəfəsinin ənənələrini inkişaf etdirərək eyni zamanda İslam Şərqində bu istiqamətin gələcək tərəfdarlarına ötürülməsində əsas mühüm vəzifələrdən biri olmuşdur.[1]

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini

[1] История азербайджанской философии. Б., «Элм», 2002, т. 1, с.137.



məşşailik məktəbinin konseptual öyrənilməsi, predmetini isə – bu cərəyanda insan probleminin əsas istiqamətlərinin təhlili, bu fəlsəfi təlimin insan haqqında ideyaların müasir fəlsəfi antropologiya üçün intellektual əhəmiyyətinin aşkarlanması təşkil edir.

**Dissertasiyanın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi orta əsrlər Şərq fəlsəfəsinin ən geniş yayılmış cərəyanlarından olan məşşailiyin insan konsepsiyasını müasir metodologiya baxımından hərtərəfli araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirməsinə cəhd göstərilmişdir:

− məşşailiyin yaranmasının tarixi şəraiti və ideya-nəzəri mənbələrini təhlil etmək;

− bu fəlsəfəsi təlimdə insan probleminin yeri və rolunu aşkara çıxarmaq;

− məşşai antropologiyasında ruh ilə bədənin münasibətlərini tədqiq etmək;

− ərəbdilli Şərq peripatetizmində insan ruhunun özünəməxsusluğu və qnoseoloji aspektlərinin təhlilini vermək;

− Şərq peripatetizmində insanın makro və mikrokosm kontekstində qoyuluşunu tədqiq etmək;

− məşşai mütəfəkkirlərin kamil insanın mənəvi keyfiyyətləri haqqında ideyalarını konseptual araşdırmaq.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**nı aşağıdakı müddəalar təşkil edir:

Dissertasiyada araşdırılan problemin klassik, qeyri-klassik və postqeyri-klassik elmi paradiqmaların təşəkkül tapması, inkişafı və müasirlik baxımından tədqiqi;

− məşşailiyin insan əsas müddəalarının təhlilində tarixi-fəlsəfi müqayisəli metoda geniş yer verilməsi;

− Şərq peripatetizmində insan probleminin təhlilində məntiqlik və tarixilik prinsiplərinin tətbiqi;

− məşşailiyin insan mahiyyatsının təhlilinə sistemli yanaşma;

− orta əsrlərin Şərq peripatetizminin nəzəri irsinin humanist aspektlərinin əldə rəhbər tutulması.

Dissertant araşdırdığı problemlərlə bağlı Şərq və Qərb fəlsəfəsinə aid mənbələrdən, o cümlədən, islam filosoflarının, müasir alimlərin tədqiqatlarından faydalanmışdır. Bununla yanaşı Azərbaycan, İran, ərəb, Avropa və bir sıra başqa ölkələrin tədqiqatçılarının əsərlərindən geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yenilyi dissertasiya işinin məqsəd və vəzifələrinin kompleks həllindən irəli gəlir və konkret olaraq aşağıdakı məqamlarda özünü göstərir:;

– məşşailikdə insan varlığının ontoloji, qnoseoloji və aksioloji aspektlərinin əsas xüsusiyyətləri aşkara çıxarılmışdır;

– məşşailiyin insan təlimində bədən ilə ruhun münasibətinin özünəməxsusluğu izah edilmiş, bu problemin şərhində Şərq və Qərb peripatetik təlimlərinin müqayisəli təhlili verilmiş, məşşai mütəfəkkirlərin baxışlarındakı oxşar və fərqli cəhətlər göstərilmişdir;

– insan mənəviyyatının saflaşdırılması, onu naqisliklərdən azad edilməsinin zəruriliyi və yolları haqqında məşşai filosofların görüşləri təhlil olunmuş, onların nəzəri irsinin müasirlik baxımından əhəmiyyəti açıqlanmışdır;

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Tədqiqat mövzusunun aktuallığı, problemin işlənilməsində əldə edilmiş yeniliklər, onun elmi-nəzəri əhəmiyyətini şərtləndirir.

Dissertasiya işində məşşailiyin fəlsəfi sistemi üçün xarakterik olan insan varlığı, ruh ilə bədənin münasibəti, fərdin kiçik aləm qismində anlaşılması, kamil insanın formalaşması şərtləri haqqında müddəaların müasir fəlsəfi antropologiya müstəvisində konseptual işlənib hazırlanması sonrakı elmi araşdırmalarda müəyyən mənbə rolunu oynaya bilər. Dissertasiyada Şərq-Qərb fəlsəfi düşüncə tərzinin oxşar və spesifik cəhətlərinin müqayisəli təhlilinin məşşailiyin nümunəsində aparılması, bu iki regionun mədəniyyətləri arasında dialoqun elmi-nəzəri əsaslarının işlənilməsinə köməklik göstərə bilər.

**Dissertasiya işinin praktiki əhəmiyyəti**. İnsan problemi, onun varlığının mənalandırılması hər bir dünyagörüşünün əsasını təşkil etdiyi üçün, Şərq və Azərbaycan fəlsəfi fikrini tarixində nüfuzlu fəlsəfi cərəyanı olan məşşailikdə irəli sürülən zəngin ideyalardan müasir insanın bəhrələnə bilmək imkanı şəksizdir. Tədqiqatın materialları, nəticələri və elmi tövsiyələri fəlsəfə tarixi, mədəniyyətşünaslıq, etika və sair fənlərin tədrisindəistifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası**. Tədqiq olunan mövzunu əhatə edən problemlərin təhlilində müəllifin gəldiyi nəticələr, 14 məqalə və tezis Azərbaycanda, Türkiyə, Rusiya və İranda çap olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil (8 yarımfəsil), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.



## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil olunur, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilir.

**«İnsan probleminin məşşailik fəlsəfəsində yeri»** adlanan birinci fəsil, iki paraqrafdan ibarətdir. Birinci paraqrafda **«Məşşailiyin yaranmasının tarixi şəraiti və ideya-nəzəri mənbələri»** araşdırılır. Burada göstərilir ki, məşşailik IX əsrin sonlarından formalaşmağa başlamışdır. Bu dövr Yaxın və Orta Şərq ölkələrində feodalizmin inkişafı, fəlsəfi fikrin və mədəniyyətin yüksəlişi ilə səciyyələnir. Xüsusilə də XI-XII əsrlərdə müsəlman Şərqi xalqlarının elmi və fəlsəfəsi inkişaf səviyyəsinə görə Qərbi Avropada XV-XVII əsrlərdə baş vermiş Renassansı azından üç-dörd əsr qabaqlamışdı.[1] Orta əsrlərdə müsəlman şərqi özünün əlverişli coğrafi şəraiti, zəngin təbii ehtiyatları və tarixən yüksək mədəniyyət ənənəsi ilə seçilirdi və məşşailik bu zəmində formalaşaraq, təkrarsız fəlsəfi irsə malik Orta Asiya və Azərbaycan xalqlarının təfəkkürünün birgə məhsulu kimi çıxış etmişdir. Bu inkişafın bünövrəsini eyni dinə etiqad edilən ölkələrdə feodal münasibətlərinin təkmilləşməsi, şəhərlərin və sənətkarlığın inkişafı, bürada yaşayan xalqların öz qonşuları ilə siyasi və mədəni əlaqələrinin genişlənməsi təşkil edirdi. Həmin dövrdə müsəlman Şərqində iqtisadi, siyasi və mədəni həyatın yüksəlişi ilə yanaşı dini və etnik amillərin özünəməxsus şəkildə çulğalaşması prosesi gedirdi. Sosial-mədəni inkişafın mühüm qanunauyğunluğunu siyasi, milli-mədəni amillərin spesifik şəkildə çulğalaşması təşkil edirdi[2]. Həmin dövrdə fəlsəfi fikir müxtəlif cərəyanları əhatə edən vahid ərəbdilli mədəniyyətin və ərəbdilli fəlsəfə adı ilə sivilizasiyanın tərkib hissəsi kimi formalaşırdı. Bu fəlsəfənin ideya əsaslarının formalaşmasında islam zəminində yaranmış dini məktəblər ilə yanaşı elmi-fəlsəfi və antikreasionist meyillər də mühüm rol oynamışdır.

Dissertasiyada göstərilir ki, məşşailik iki əsas ideya qaynağı əsasında formalaşmışdır. Onlardan birincisi Azərbaycan və Orta Asiya xalqlarının qədim və zəngin mədəniyyət ənənələri, ikincisi isə antik fəlsəfi təlimlərlə dərindən və hərtərəfli tanışlıq olmuşdur. Belə

---

[1] Şərq fəlsəfəsi, s.26.
[2] История Азербайджанской философии. Т. I. Баку, «Элм», 2002. s.50,52.

mövqedən yanaşmaqla, məşşaizmin formalaşmasına qida vermiş əsas dini fəlsəfi cərəyanların – mütəkəllimin, mötəzilizmin, qədərilliyin, ismaililliyin, saflıq qardaşları təliminin insana dair baxışları təhlil olunur. Həmin cərəyanlar müxtəlif fəlsəfi problemlərin şərhində bir-birinin ideyalarından qarşılıqlı bəhrələnsələr də, onlar arasında nəzəri ziddiyyətlər və fikir ayrılıqları da özünü göstərir və bəzən bu kəskin mübarizə forması alırdı. Sonuncu vəziyyət daha çox sufizm və mütəkəllimlər ilə məşşailiyin münasibətləri üçün səciyyəvi olmuşdur. Bu paraqrafda belə bir nəticəyə gəlinir ki, orta əsrlərin müsəlman Şərqində ən geniş nüfuza malik məşşailik (Şərq peripatetizmin) öz dövrünün ideya-nəzəri tələbləri və mənəvi düşüncə tərzi kimi yetişmşdi, o, aristotelizm və digər antik fəlsəfi ənənələr zəminində yaranan ilk fəlsəfi cərəyan olmuşdu[1].

Birinci fəslin ikinci paraqrafı **«Məşşailiyin fəlsəfi sisteminin əsasları»** adlanır. Burada öncə qeyd olunur ki, məşşai mütəfəkkirlərinin insan və onun mahiyyəti haqqında baxışları onların ontoloji və qnoseoloji konsepsiyalarının, bütövlükdə fəlsəfi dünyagörüşünün tərkib hissəsini təşkil etdiyi üçün, əvvəlcə həmin məktəbin ümumfəlsəfi sisteminin əsaslarının təhlili zəruridir.

X-XIII əsrlərin Şərq peripatetizmi orta əsrlər islam fəlsəfəsinin inkişafında keyfiyyətcə yeni mərhələ olmuşdur. Onun nümayəndələri – Əl-Kindi, Əl-Fərabi, İbn Sina, Bəhmənyar, Nəsirəddin Tusi, Siracəddin Urməvi və digər mütəfəkkirlər əsərlərində aristotelizm və yeni platonçuluq ənənələrini inkişaf etdirən bütöv və hərtərəfli fəlsəfi sistem yaratmışlar. Bu sistem daxili məzmunu etibarilə mürəkkəb və geniş əhatəli olub, bir tərəfdən antik fəlsəfi ənənələri, digər tərəfdən isə Orta əsr müsəlman Şərqində qərarlaşmış dini və fəlsəfi cərəyanların şərh etdiyi varlıq, onun iyerarxiyalı strukturu, vahid varlıq ilə dünyadakı çoxlu varlıq formalarının münasibəti, Allahın və dünyanın əbədiliyinin əsaslandırılması, kainata Allahın varlığından qopub ayrılmış varlıq kimi şərhinin mümkünlüyü və digər problemləri əhatə edirdi .[2]

Məşşai məktəbinin tərəfdarları fəlsəfəni iki hissəyə: nəzəri və əməli ayırırdı və birincilərə böyük üstünlük verirdilər[3]. Onların bir

[1] Şərq fəlsəfəsi, s.6.
[2] Соколов В.В. Средневековая философия М., Наука, 1979, s.244-245
[3] Şərq fəlsəfəsi, s.9



qismi xristian ilahiyyatçılarından fərqli olaraq dünyanın Allahın iradəsilə yox, zəkası ilə yaradıldığını irəli sürürdülər, ümumi anlayışlara isə real əşyalarda təcəssüm edilmiş mahiyyət və onun əsasında yaradılmış anlayış kimi yanaşmaqla, fəlsəfədə rasionalizm mövqeyini inkişaf etdirmişlər[1]. Məşşai filosofların dünyanın əbədi və sonsuz, lakin məkan daxilində mövcudluğu, kainatın genişlənməsi və sonradan sıxıla biləcəyi haqqında ontoloji baxışları xüsusilə mühümdür[2].

Dissertasiyada Əl-Kindinin, Əl-Fərabinin, İbn Sinanın, Ə.Bəhmənyarın, Nəsirəddin Tusinin, Siracəddin Urməvinin əsərlərində irəli sürülən ideyaların ümumiləşdirilməsi əsasında məşşailiyin emanasiya prinsipinə münasibəti, zəruri varlıq və mümkün varlıq, materiya və forma, substansiya və aksidensiya, kəmiyyət, keyfiyyət, hərəkət, ilk səbəb, nəticə və sair ilə bağlı ideyaları ümumiləşdirilir və onların insan mahiyyətinin anlaşılması üçün əhəmiyyəti açıqlanır. Belə bir cəhət vurğulanır ki, məşşai filosoflar öz dövrünün təbiətşünaslıq elmlərinə dərindən yiyələnərək, onları inkişaf etdirmiş və bu nailiyyətlərə əsaslanmaqla təkcə antik ontoloji təsəvvürləri dəqiqləşdirməklə məhdudlaşmasış, həm də idrak prosesi ilə məsələlərin anlaşılmasında mühüm yeniliklər yaratmışdılar. Bu mənada onlar tərəfindən idrakın hissi və rasional səviyyələrə ayrılması, birincinin cism və əşyaların zahiri tərəfləri haqqında məlumat verməsi, ikincinin isə daha yüksək olmaqla obyektlərin daxili mahiyyətini açdığı fikirləri diqqəti cəlb edir[3].

Məsələn, Əl-Kindi yazırdı: «İnsanın səltənətindən dərəcəcə ən alisi, mərtəbəcə ən şərəflisi fəlsəfə sənətidir». Mütəfəkkirin fikrincə, filosofun məqsədi həqiqətə nail olmaqdır, öz işində həqiqətə əməl etməkdir. Şərq peripatetizminin mükəmməl sistemini yaratmış türk filosofu Əl-Fərabi özünün «Elmlərin siyahıya alınması» əsərində elmləri beş qrupa ayıraraq məntiq və fəlsəfə üstünlük vermişdir..

Ə.Bəhmənyar fəlsəfə ilə elmlərin sıx əlaqəsini qeyd etməklə yanaşı göstərirdi ki, metafizikanın predmeti bütün cisimlər üçün

[1] افلاطون،دفترآثارافلاطون،جلددوم،ترجمه محمدحسن لطفی،انتشارات گلشن،1377،تهران،ص245
[2] حسینی،سیدابوالقاسم،بررسی مقدماتی اصول روانشناسی،انتشارات دانش،1373،تهران، ص292

[3] Məmmədov Z. Azərbaycan fəlsəfi tarixi, Bakı, «İrşad». 1994, s.246.

ümumi olan, yəni özlüyündə mövcudatı, başqa sözlə varlığı öyrənməkdir. Mütəfəkkirin dünyagörüşü kontekstində metafizika varlığın və idrakın əsas prinsipləri haqqında təlimdir. Filosofa görə, varlıq üç nöqtədə bir-birindən fərqlənir. Birinci əvvəlgəlmə və davametmə; ikinci öz-özünə kifayət olması və tələbat; üçuncusu, zərurət və mümkünlükdür. Onun təlimində bu üç tərəf əsasən üst-üstə düşür. Onun varlıq təlimində substansiya və aksidensiya kateqoriyalarına mühüm yer ayrılır. Bəhmənyara görə, substansiya konkret mövcudluqların yaranması üçün ilkin materialdır. O, substansiyaların sadə və mürəkkəb formalarını fərqləndirir və göstərir ki, materiya və forma mükəmməl substansiyaların yaranmasında iştirak edir. Forma dedikdə isə Bəhmənyar, aktual vəziyyətdə olan hər şeyi başa düşürdü. Elementlər sadə formaya malikdir. Onun təlimində formanın əvvəl, materiyanın isə sonra gəldiyi mülahizəsinə rast gəlinir. Mütəfəkkirin idrak nəzəriyyəsində idrak prosesinin hissi və əqli mərhələləri sıx əlaqədədir. Əməli fəlsəfəni həm əxlaqi xeyirxahlıq, həm də onu öyrənən elm sayan İbn Sinadan fərqli olaraq Bəhmənyar əməli fəlsəfəni yalnız əxlaqi xeyirxahlıq mənasında başa düşürdü.

Məşşailiyin görkəmli nümayəndəsi N.Tusi fəlsəfəni hikmət elmi kimi səciyyələndirərək göstərirdi ki, «onu (fəlsəfəni – müəll.) öyrənmək nəticəsində insanın mənəviyyatı mümkün qədər, arzu edilən səviyyəyə yüksələr». Onun fəlsəfəsində varlıq təlimi, idrak nəzəriyyəsi və məntiq üzvü vəhdətdə şərh edilir.

Dissertasiyanın ikinci fəsli **«Məşşailik antropologiyasının əsas istiqamətləri»** adlanır və beş hissədən ibarətdir. Birinci hissədə – **«İnsan varlığının ümumontoloji və aksioloji aspektləri»**nin məşşai anlamı təhlil edilir. Burada öncə qeyd olunur ki, həm orta Asiya, həm də azərbaycanlı peripatetikləri varlığın ən yüksək zirvəsində duran Allah anlayışına spesifik məna verir, onu mücərrəd xalis Mütləq (Absolyut) kimi səciyyələndirir, bu anlayış altında bir tərəfdən platonçu – rifah və Allah-vəhdət, digər tərəfdən aristotelçi Allah-ideya ifadə olunurdu[1].

Məşşailər tərəfindən Allahın belə anlaşılması, onun dünya, o cümlədən də insan ilə münasibətlərinin izahında mühüm yeniliklər

---

[1] Койре А. Очерки истории философской мысли. М., Прогресс, 1985, s.55.



yaradırdı. Belə ki, Əl-Kindi və Əl-Fərabi Allahı ilk səbəb kimi götürür, bu fikri onun dünyada nizam və qayda yaratması ilə əsaslandırmağa çalışırdılar.[1]

Məşşailərin fikrincə, Allah fəal səbəb və mütləq forma olduğu üçün, ilk mühərrikdir və onun hər hansı daha yüksək formaya keçməyə ehtiyacı yoxdur, buna görə də hərəkətsizdir.[2] Səbəbiyyət prinsipini qəbul edən məşşailik varlığı üç növə ayırır və göstərirdi ki, insanı əhatə edən Zəruri Varlıq real mövcuddur, o başqa şəkildə ola bilməz. Mümkün varlıq şeylərə və cismlərə aiddir və səbəb-nəticə əlaqələrində çıxış edir, lakin sonuncu zəncir sonsuz deyil, o, elə bir varlıqla başlayır və sona çatır ki, onun zəruri mövcudluğu heç bir digər varlıq ilə vasitələnmir[3].

Öz-özünə zəruri olmayan bütün mövcudatın mümkün olmayan növü bununla səciyyələnirt ki, onlar yalnız səbəbə malik olduqda, zəruri olur. Əks halda isə qeyri-mümkün vəziyyətdə qalırlar.

Dissertasiyada məşşai mütəfəkkirlərin varlığın növlərinin emanasiya prinsipi üzrə yaranması məsələsinə münasibət bildirilir. Qeyd olunur ki, onlar emanasiya nəzəriyyəsinin sxemini sadələşmiş şəkildə, simvolik mənada işlədir və təfərrüatlara varmırdılar.

Şərq peripatetikləri təlimlərində insan varlığının aksioloji aspektinə də geniş yer ayırmış, dəyərlərin mahiyyəti və iyerarxiyalılığı ilə bağlı aktual fikirlər irəli sürmüşlər. Onların əqidəsincə, mövcud reallıq sistemi, insan dəyərlərinin strukturunu da müvafiq surətdə şərtləndirir.[4]

Dissertasiya işində göstərilir ki, məşşailərin fəlsəfəsində varlığın iyerarxiyalı təşkili, mükəmməllik və qeyri-mükəmməllik, imkan (mümkünlük) və gerçəklik (real olmaq), materiya və forma, xeyir və şər göstəriciləri ilə uyğun gəlir, dünyada şərin də olmasına baxmayaraq, üstünlük xeyrə məxsusdur.

İkinci fəslin ikinci paraqrafı məşşailikdə **«Ruh ilə bədənin**

---

[1] Аль-Фараби. Философские трактаты. Алма-Ата, 1970. s.89; Şərq fəlsəfəsi (IX-XII əsrlər). (Tərtibçi Z.Məmmədov). Bakı, BDU nəşriyyatı, 1999, s.31-34.

[2] Азимов К.А. Проблема человека в религиозно-философских доктринах зароостризма и ислама, Баку, «Леттерпресс», 2009, s.142.

[3] Абу Али Ибн Сина. Указания и наставления // Ибн Сина. Избранные произведения. Т.I. Душанбе, «ИрФон», 1980, s.284.

[4] Аль-Фараби. Существо вопросов. В кн. Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока, М., «Наука», 1961, s.168.

**münasibəti»**nin araşdırılmasına həsr olunmuşdur. Burada öncə belə bir ideya vurğulanır ki, ruh ilə bədənin münasibətinin izahı Şərq peripatetiklərinin antropologiyasında mərkəzi yer tutmuşdur. Məşşai filosoflar göstərirdilər ki, insan iki hissədən – ruh və bədəndən ibarətdir. Cisim maddi dünyaya məxsus olduğu üçün torpaqdandır və əsl sayılmır. Bundan fərqli olaraq ruh insanda əsldir və cövhərdir. O, qeyri-maddi aləmdən gəlmişdir və bədən öldükdən sonra ondan uzaqlaşır və yenidən öz yerinə qayıdır.[1] Məşşai filosoflar insanın fəlsəfi mənalandırılması ilə bağlı digər məsələlərdə olduğu kimi, ruh ilə bədənin münasibətinin şərhində də antik ənənəyə, xüsusilə də platonçuluğa və aristotelizmə arxalanırdılar. Lakin onlar bir qədər irəli gedərək ruh haqqında Aristotelin Platondan fərqli rasionalist materialist mövqeyini daha çox müdafiə edirdilər.[2] Müsəlman peripatetikləri bədən ilə münasibətdə ruhun əsas rolunu aşağıdakı iki dəlillə sübut etməyə çalışırdılar: a) ruh maddiyə (bədənə) nəzərən mücərrəddir və yüksək mövqeyə malikdir, buna görə də ruh bədənə deyil, əksinə bədən ruha tabedir, b) ruh, bədən ünsürlərinin kompleksi, onun dayaq nöqtəsi, onun idarə edəni və tamamlayıcısıdır. Bundan əlavə ruh əsas başlanğıc və icra edəndir, bədən isə maddə və hərəkətin icra edildiyi yerdir. Odur ki, onlar eyni rola malik ola bilməz, ruh əsasdır, bədən isə ikinci dərəcəlidir.[3] Əl-Fərabinin fikrincə, «ruh həyat potensialına malik olan üzvi təbii cismin ilkin kamilləşməsidir. İnsan, bitki və heyvanlar kimi göylər də ruha malikdir»[4]. Digər ensiklopedik məşşai mütəfəkkir – İbn Sina nəzərdən keçirdiyimiz problemin şərhində Arstotelə yaxın olsa da, sonuncunun fəlsəfəsinə müəyyən dəyişiklik edərək, ruh ilə bədənin birliyini, ruhun bədənin surəti olmasını, onun kamilliyini qəti şəkildə irəli sürürdü[5]. Ruhun gücü ilə bədəni müalicə etməyin mümkünlüyünü göstərən mütəfəkkir öz tibbi təcrübələrinə əsaslanaraq qeyd edirdi ki, bir cismani xəstəni ruhun və iradənin

1 فروغی،محمدعلی،سیرحکمت در اروپا،جلدسوم،انتشارات زوار،1386،تهران،ص15-17
2 دیباجی،محمدعلی،تجردنفس از دیدگاه سهروردی،فصلنامه اندیشه دینی،شماره31،دانشگاه شیراز،ص29

3 سبزواری،حاج ملاهادی سبزواری،شرح منظومه،انتشارات علامه،قم،ص22
4 فروغی،محمئعلی،سیرحکمت در اروپا،انتشارات زوار،1385،تهران،ص22-30
5 الفاخوری حنا،تاریخ فلسفه درجهان اسلامی،1367،تهران،سازمان انتشارات و آموزش انقلاب اسلامی،ص119-120



gücü ilə sağaltmaq olar. Onun fikrincə, bunun əksi də baş verə bilər: sağlam adam xəstəliyi təsəvvür etsə və ya özünə təlqin etsə, o xəstələnər. İbn Sina ruhun varlığını sübut etmək üçün aşağıdakı dəlilləri gətirirdi: Təbii psixoloji xarakterli birinci dəlil o deməkdir ki, insanın yaşayışı gedişində elə məsələlər (hərəkət və idrak) meydana çıxır ki, ruhun varlığını etiraf etmədən onları həll etmək qeyri-mümkündür. İkinci dəlil, insan özü ilə və yaxud başqasına müraciət edərək danışanda, bütün diqqətini cismə yox, ruha və nəfsə yönəldir. Üçüncü dəlil, nəfs və ruhun varlığını vaxt amili ilə bağlı sübut etməyə çalışır: indi, özündə həm keçmişi daşıyır, həm də gələcəyə getməyə hazırlaşır, bugünkü həyat dünənki ilə sıx bağlıdır. Dördüncü dəlilə görə, insan hər hansı nəyəsə şübhə ilə yanaşsa da, öz mövcudluğuna qəti əmindir, insanın özünün var olması haqqında məlumatı açıq-aşkardır və dəlilə ehtiyacı yoxdur. Beşinci dəlil bunu ifadə edir ki, insanda cismdən əlavə, cismlə bağlı olan başqa bir mənbə vardır, o isə ruhdur.[1]

Dissertasiyada Qərbin məşşai filosofları ilə Şərq məşşailərin təlimi arasında ruh ilə bədənin münasibətlərinin anlaşılmasında mövcud olan fərqlərin təhlilinə geniş yer verilmişdir. Başlıca fərq bundadır: birincilər ruh ilə bədənin əlaqəsini maddə və formanın əlaqəsi kimi təsəvvür edirdilərsə[2], məşşailər daha irəli gedərək göstərirdilər ki, «ruh» anlayışı, «formadan» daha dərindir, burada quşun öz yuvasına olan münasibəti özünü göstərir. Onların fikrincə, ruhun bədən ilə birləşməsi təbii meyl kimi çıxış edir, yəni bədən ruhu qəbul etməyə hazır olduqda, ruh ona daxil olur.[3] Digər bir fərq budur ki, qərb filosofları ruh ilə bədəni bir-birindən ayrılmaz hesab etdiyi halda, məşşailər onların ayrılığını və ruhun bədən üzərində hökmranlığını irəli sürürdülər.[4] Nəhayət belə bir fərq də nəzərə çarpır: Qərbdə ruh ideyasındakı ruhani element həm də müəyyən qədər bədənə aiddir. Bunun nəticəsində insanda baş verən nifrət, qəzəb və məhəbbət cism ilə ruhun birlikdə tərkib hissələri hesab olu-

1 افلاطون،جمهور،ترجمه فؤاد روحانی،انتشارات علمی و فرهنگی،1374،تهران،ص77-78
2 ابن سینا،حسین ابن عبدالله،شفا،انتشارات سروش،1382،تهران،ص187-188
3 ابن سینا،حسین ابن عبدالله،شفا،انتشارات سروش،1382،ص189
4 ارسطو،درباره نفس،ترجمه و تحشیه ع.م،انتشارات حکمت،1369،تهران،ص8-10

nur.[1] Şərq peripatetikləri isə belə əqidədə idilər ki, ruh öz məqsədinə çatmaq üçün bədən üzvlərindən istədiyi kimi istifadə edir.[2]

Bu paraqrafın sonunda məşşai filosoflarının reinkarnasiya təliminə münasibəti nəzərdən keçirilir. Dissertant qeyd edir ki, sonuncular insan öldükdən sonra onun ruhunun başqa bir canlıya köçməsi ideyasının mümkünlüyünü inkar edirdilər. Bu mövqe Əl-Fərabinin, İbn Sinanın və Ə.Bəhmənyarın müvafiq fikirləri ilə əsaslandırılır.

İkinci fəslin üçüncü bölməsində – **«İnsan ruhunun özünəməxsusluğu və qnoseoloji səpkisi»** tədqiq edilir.

Ruhun təsnifatı məsələsində Aristotelin ardıcılı olmuş məşşai mütəfəkkirlər onun bitkiyə, heyvana və insana xas olan növlərini ayırmaqla yanaşı, sonuncunun əvvəlkilərdən yüksəkdə durduğunu göstərmişlər. Onların fikrincə, insan ruhu başqa ruhlardan fərqlənir, çünki o zəka qüvvəsinə malikdir, «düşünən qüvvədir» və «danışan ruhdur». Şərq peripatetiklərin «zəkalı ruhun» ən mühüm keyfiyyətlərini onun nitqə malik olmasında, öz hərəkətlərini seçimlə etməsində və ümuminin mənasını anlaya bilməsində görürdülər. O, heç bir digər alətin köməyi olmadan yaranan və dərk edilən cisimləri bir-birindən fərqləndirmək qabiliyyətinə malikdir. Bu qüvvə iki hissədən (nəzəri və praktiki) ibarətdir. Birinci cisimlərin həqiqi təbiətini dərk etməyə yönəlir, ikinci isə insanın məişətini və peşə üzrə fəaliyyətini tənzimləyir.[3] İbn Sina, Bəhmənyar və N.Tusi dönə-dönə göstərirdilər ki, zəka insan ruhunun əsas meyarı və göstəricisidir. Məşşailərə görə praktiki və əqli-nəzəri qüvvələr zəkalı insan ruhunun bədən ilə əqlə müyəssər olan forma arasında əlaqələndirici vəsilə kimi çıxış edir. Məşşai təliminin zəkalı insan ruhunun yüksək səviyyəsinin ölməzliyi haqqında fikirləri də maraq doğurur. Onlar göstərirdilər ki, bu keyfiyyət, yüksək zəkalı ruhun substansiyalılığı və qeyri-maddiliyi sayəsində qazanılır. Zəkalı ruhun yüksək pilləsi daxilində bir-birinə

---

1 گمپرتس،تئودور،متفکران یونانی،ترجمه محمحسن لطفی،جلددوم،انتشارات خوارزمی،1375،تهران،ص 25

2 افلاطون،دفترآثارافلاطون،جلددوم،ترجمه محمدحسن لطفی،انتشارات گلشن،1377،تهران،ص247

3 Абу Али Ибн Сина. О душе (Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока, 1961, s.220; N.Tusi «Əxlaqi nasiri», Bakı, «Elm», 1989, s.23; Бахманяр ал-Азербайджани. Ат-тахсил (Познание) Баку, «Элм», 1983, T.3, s.122 və s.



zidd qüvvələr yoxdur, buna görə də onu heç bir qüvvə məhv edə bilmir[1]. Əl-Fərabi özünün «Zəka nəzəriyyəsi»ni işləyib hazırlamışdı, burada insan zəkasının üç mərhələdən ibarət olduğu göstərilirdi: a) imkan vəziyyətində olan zəka; 2) gerçəklik vəziyyətində olan, yaxud aktiv zəka; 3) zəkanın xüsusi qazanılmış yüksək səviyyəsi. Onun fikrincə sonuncu pilləyə yüksəlmək insanın başlıca məqsədidir.[2]

Dissertasiyada qeyd olunur ki, məşşai filosofları idrak problemlərini insan ruhunun spesifikliyi ilə əlaqəli həll edirdilər. Şərq peripatetikləri bu məsələnin şərhində qədim yunan ənənələrinə (birinci növbədə Aristotelə) əsaslansalar da, onlardan xeyli qabağa getmişdilər. Həm Əl-Fərabi, həm də İbn Sina ağıl ilə baş beynin fəaliyyəti arasında əlaqəni anlayır, insanın mahiyyətini bilik əldə edən, dərk edən və dərk olunan kimi qiymətləndirirdilər.[3] Onlar idrakı obyektiv mövcud olan cisimlərin xassələrini, keyfiyyəti və mahiyyətini dərk edən fərdin duyğularınında, hisslərində və zəkasında əks olunması kimi başa düşürdülər. Məşşailər dərk olunan cismin əqlə müyəssərlik dərəcəsindən asılı olaraq idrakı iki pilləyə (hissi və rasional) ayırırdılar. Birinci daxili və xarici hisslər vasitəsilə insana birbaşa təsir edən obyektlərin xassə və keyfiyyətlərini bəlli edir. Nəzəri pillədə isə əşyalar əqlə müyəssər formada, abstraksiyalarda ümumiləşdirilmiş və mücərrədləşdirilmiş halda dərk olunur.[4] Məşşailər idrakın nəzəri pilləsini, hissi mərhələdən tam ayırmır, əksinə göstərirdilər ki, zəkalı ruh özünün mücərrəd nəzəri fəaliyyətində duyğuların və hissi qavrayışların verdiyi məlumatlara əsaslanır. Bununla belə, onlar nəzəri pillənin üstün rolunu vurğulayaraq göstərirdilər ki, bu səviyyədə cismlər sadəcə öyrənil-

---

1 Азимов К.А. Проблема человека в религиозно-философских доктринах зароостризма и ислама, Баку, «Леттерпресс», 2009, s.177.

2 Аль-Фараби. Трактат о взглядах жителей добродетельного города//Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока, М., «Наука», 1961, s.169.

3 Абу Али Ибн Сина. О душе (Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока, М., Соцэкгиз, 1961, s.510; Аль-Фараби. Существо вопросов. (Yenə orada. s.99)

4 Абу Али Ибн Сина. Указания и поставления. Избранные произведения. T.I. Душанбе, «ИрФон», 1980, s.314; Бахманяр ал-Азербайджани. Ат-тахсил (Познание) Баку, 1983, кн.3, s.125; М.М. Хайруллаев. Абу Наср аль-Фараби, М., «Наука», 1982, s.190.

mir, həm də dərk olunur, yəni universal, ən ümumi anlayışlar və kateqoriyalar formalaşdırılır, nəzəri mühakimələr qurulur və əqli nəticələr hasil edilir.[1] Dissertasiya işində göstərilir ki, Müsəlman Şərqi peripatetiklərinin idrak nəzəriyyəsi varlıq təlimi, aksioloji və psixoloji təsəvvürləri ilə ayrılmaz əlaqədədir və onları tamamlayır.

İkinci fəslin dördüncü paraqrafı **«İnsan makro-mikrokosmos kontekstində»** adlanır. Burada məşşailiyin antropoloji konsepsiyasında mühüm yer tutan insana makrokosmos ilə mikrokosmos aspektində yanaşmanın əsasları təhlil olunur. Öncə qeyd olunur ki, bu ənənənin kökləri qədim fəlsəfəyə söykənsə də, orta əsrlərin Şərq mütəfəkkirlərinin yaradıcılığında daha da inkişaf etdirilmişdir. Bu dövrün nəzəri fikrində təbiət ilə insanın vəhdətinin, bütövlükdə kosmosun izahında simvolik şərh və analogiya üsulu geniş yer tuturdu və təbiətə simvolların böyük ehtiyat anbarı kimi yanaşılması səciyyəvi idi.[2] Məşşailikdə göstərilirdi ki, insan təbiət gözəlliyinin mənbəyidir, özünün aktiv fəaliyyəti sayəsində təbiətə aydınlıq gətirir, sonuncu da öz növbəsində insanla nəfəs alır və yaşayır. Makro və mikrokosmosun ayrılmaz vəhdəti ideyasına görə insan təbiəti öyrənməklə, eyni zamanda öz daxili aləminin dərkinə doğru irəliləyir, digər tərəfdən bunun əks istiqaməti özünü göstərir. Bütövlükdə orta əsrlərin Şərq fəlsəfəsində olduğu kimi, məşşailikdə də kainat və üzvi aləm «böyük insan», «insani kəbir» kimi, eynilə də insan «kiçik aləm», mikrokosmos kimi səciyyələndirilirdi.[3] Belə bir ideya irəli sürülürdü ki, insanın «kiçik aləm»dən «böyük aləmə» doğru irəliləməsi yolunda qazandığı kamillik və məqsəd onu «tam mütləq insan dərəcəsinə yüksəldir».[4]Məşşailikdə insana mikrokosmos kimi yanaşma, onun bədənində dörd elementin müəyyən nisbətdə və özünəməxsus şəkildə birləşməsi ideyasına əsaslanırdı. Şərq peripatetiklərinin fikrincə, insanın xarakterik cəhətləri və

[1] Аль-Фараби. Трактат о взглядах жителей добродетельного города // Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока, М., «Наука», 1961, s. 268-270; Ибн Сина. Указания и поставления. Избранные произведения. Т.I. Душанбе, «ИрФон», 1980, s.314; Бахманяр ат-Азербайджани. Аттахсил (Познание) Баку, «Элм», 1983, кн.3, s.170-180; N.Tusi «Əxlaqi nasiri», Bakı, «Elm», 1989, s.65-75.
[2] Гуревич А.Я. Категории средневековой культуры. М., «Искуство», 1984, s.70.
[3] Nəsirəddin Tusi. «Əxlaqi nasiri», Bakı, «Elm», 1989, s.57.
[4] Yenə orada, s.57.



temperamenti, hətta sağlamlıq dərəcəsi də həmin elementlərin qarışığının tarazlığı və ahəngdarlığı göstəriciləri ilə müəyyən olunur.[1] Məşşai filosofları həm də göstərirdilər ki, insanın bədən orqanları ürəyə tabedir, o, istiliyin və quruluğun mənbəyi olmaqla oda bənzəyir. İnsanın qanı istiliyin və rütubətin mənbəyi kimi, suya oxşayır. Bədənin sümükləri təbiətdəki dağlara, digər orqanlar da müvafiq surətdə ağaclara, otlara, minerllara və bitkilərə uyğun gəlir.[2]

Məşşailərə görə, bütün mövcudatlardan yalnız insan özünün spesifik aləmini – insaniləşmiş dünyasını yaratmağa qadirdir. Bu yeni keyfiyyət və kamillik onun bədənində təbii elementlərin ən yaxşı formada təşkili və ruhun bütün müsbət xassələrinin yerləşməsi sayəsində baş verir. İnsan sükunət vəziyyətində qalmır, kamilliyin pillələri ilə yüksələ bilir, kamilliyi müxtəlif tərəflərin vəhdəti kimi bütöv və vahid şəkildə dərk edir. Bütün bunların nəticəsində insan özündə «makrokosmosa» bənzəyən mikrokosmosyaradır.

İkinci fəslin beşinci paraqrafı **«İnsanın mənəvi keyfiyyətləri və mükəmməl insan problemi»** adlanır. Burada məşşailiyin fəlsəfi antropologiyasının tərkib hissəsi olan əxlaq təlimi və kamil insan anlamı tədqiq olunur. Dissertant qeyd edir ki, Orta Şərq peripatetiklərinin elmi yaradıcılığında insanın mənəvi keyfiyyətləri, əxlaqı, onu saflaşdırma yolları və vasitələri haqqında mülahizələrə və müddəalara geniş yer ayrılır. Dissertant İbn Sinanın, Nəsirəddin Tusinin və Siracəddin Urməvinin əsərlərində əksini tapan müddəalar ümumiləşdirir, onların kamil insan idealı ətraflı təhlil və şərh olunur. İbn Sina göstərirdi ki, insanın «ağılı idarəedəndir», nəfsi isə ona pisliyi əmr edir. Buna görə də «nəfs məsələlərinə diqqətli» olan hər kəs öz nəfsinin təmizlənməsi üçün fəzilətləri, onlara yiyələnmək keyfiyyətini dərk etməyi, nəfsinin paklaşması üçün rəzillikləri, onlardan qaçınmaq keyfiyyətini dərk etməyi sevir.»[3].Onun təlimində insanda ədalətlilik, səxavət və qənaət, səbr və comərdlik, həlimlik və ismət, bağışlama və təvazökarlıq, iltifat göstərmə və sirri gizlətmə,

[1] Аль-Фараби. Трактат о взглядах жителей добродетельного города, s.308; Ибн Сина. Канон врачебной науки, Кн-I. Ташкент, «Фон», 1980, s.14; Nəsirəddin Tusi. «Əxlaqi nasiri», s.35-38.
[2] Азимов К.А. Проблема человека в религиозно-философских доктринах Зороастризма и Ислама, Баку, 2009, s.170.
[3] İbn Sina. Etikaya dair traktat / Şərq fəlsəfəsi IX-XII əsrlər. Bakı, 1999, s.108.

hikmət və nitq gözəlliyi, bəsirət və fikir sağlamlığı, vəfa və sevgi, rəhm və həya, hümmət böyüklüyü, əhdə hörmət və sair keyfiyyətləri çox yüksək dəyərləndirilirdi.[1] İbn Sinaya görə, insanın fəzilətə zidd rəzilliklərdən qurtulması zəruridir.[2]Məşşai mütəfəkkir öyrədirdi ki, insan təbiətində həm yaxşı işlərə, həm də mənfi əməllərə yönəldən meyillər vardır. Lakin o həmişə yaxşı keyfiyyətlərə malik olmağa çalışmalıdır.[3]

Dissertasiyada məşşailiyin XIII əsrdə yaşamış digər görkəmli nümayəndəsi S.Urməvinin insanın mənəvi keyfiyyətləri və onun inkişafı yolları haqqında ideyalarının da təhlili verilmişdir. Burada göstərilir ki, S.Urməvi insanı varlıq kimi yüksək qiymətləndirir, onun özünü idarə edə bilməsinin zəruri sayır, fəzilətlərə yiyələnməyi, rəzilliklərdən qurtarmağı vacib sayırdı. O, bu məqsədlə etik normalara əməl olunmasına böyük əhəmiyyət verirdi. Urməviyə görə, insanın bütün hərəkətləri və əməlləri mötədillik prinsipi üzrə qurulmalıdır.[4]

Deyilənlər əsasında belə nəticəyə gəlmək olar ki, məşşailiyin insanın mənəvi saflaşdırılmasının zəruriliyi, ona nail olmaq yolları və vasitələri haqqında etik fikirləri mühüm tərbiyəvi əhəmiyyət kəsb edir. Bu ideyalar mahiyyətcə orta əsrlər Yaxın və Orta şərq ölkələrində mənəvi həyatının ruhunu əks etdirir.

«Cəmiyyətin mənəvi həyatına peripatetizm ideyalarının təsiri xüsusiyyətləri» adlanan 6-cı paraqrafda şərq peripatetiklərinin mənəvi həyat məsələsində Aristotel və digər yunan peripatettiklərinin fəlsəfi-etik irsinə müraciətindən bəhs olunur və bunun Şərq fəlsəfi fikrinə təsirindən bəhs olunur. Dissertasiyada göstərilir ki, orta əsr şərq peripatetikləri dünyanı dərk edən, ona praktiki münasibət bəsləyən insan probleminə xüsusi diqqət yetirmişlər. Bununla bağlı dövrün konkret tarixi mərhələsinin mahiyyəti, inkişaf xüsusiyyətləri nəzərdən keçirilir.Peşəcə həkim olan Bəcca insan ruhu probleminin araşdırılmasına xüsusi diqqət yetirilmişdir. Qeyd edək ki, Şərq peripatetizminin inkişafında, İslam insan konsepsiyası mühüm rol oynamışdır. Məsələn, İbn Tuteyl fərd, insanın dəyərliyi probleminə xüsusi diqqət yetirmişdir. Bütövlükdə orta əsrlər Müsəlman Şərqi

---

[1] İbn Sina. Etikaya dair traktat / Şərq fəlsəfəsi IX-XII əsrlər. Bakı, 1999, s.109.
[2] Yenə orada, s.110.
[3] İbn Sina. Etikaya dair traktat / Şərq fəlsəfəsi IX-XII əsrlər. Bakı, 1999, s.109-110.
[4] Məmmədov Z., Siracəddin Urməvi, Bakı, «Elm», 1990, s.28.



peripatetiklərində insan amili xüsusi rol oynamışdır. İbn Bəcca deyirdi ki, öz fərdiyyətini icmadan tutan şəxs cəmiyyət üçün böyük bəladır. Bununla belə əminliklə demək mümkündür ki, qərbi avropa fəlsəfəsində yeni istiqamətlərin formalaşmasında şərq fəlsəfəsinin, xüsusilə Şərq peripatetiklərinin idrak nəzəriyyəsinin, xüsusilə onların insan haqqında konsepsiyasının təsiri danılmazdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqaqata yekun vurulur və göstərilir ki, məşşailiyin insan mahiyyati Yaxın və Orta Şərqin və Qərbin fəlsəfi antropologiyasının formalaşmasında mühüm rol oynamışdır və indi də öz əhəmiyyətini saxlayır.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı nəşr edilmiş əsərlərində öz əksini tapmışdır:


1. İnsanın mahiyyətinə dair dini və fəlsəfi baxışlar haqqında // “Tarix və onun problemləri” nəzəri, elmi-metodik jurnal. Bakı, №2, 2007, s.356-363
2. Orta əsr ərəb-müsəlman fəlsəfəsində ruh probleminə münasibət // “Tarix və onun problemləri” nəzəri, elmi-metodik jurnal. Bakı, №3, 2008, s.26-33
3. Yeni dövr Avropa müsəlman fəlsəfəsində ruh probleminin qoyuluşuna dair / Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Elmi Məcmuəsi, Bakı, №6, 2009, s. 353-360.
4. Topic of the paper: review and analysis of human nature from the perspective of Quran // Актуальные проблемы гуманитарных и естественных наук. Журнал научных наук, Москва, №1, 2010, с. 278-284.
5. Проблемы души и тела в философии Ибн Сины / Межвузовский сборник научных трудов «XXI век: Итоги прошлого и проблемы настоящего». Актуальные проблемы социально-гуманитарного знания, пенза, в. 13, 2010, с. 84-87.
6. Platonun «Fedon» dialoqunda ruhun əbədiliyi məsələsi // AMEA, Fəlsəfi Araşdırmalar İctimai Birliyi. “Fəlsəfə” Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, №1914), 2010, s. 54-59
7. Impact of Sadda’s treatment of “self-knowledge” of human on the solution of philosophical dilemmas / Kültür evreni, Üç ayda bir yayımlanan uluslararası hakemli sosyal bilimler dergisi, Türkiye, №5, 2010, s. 248-256
8. Декарт о сущности человека / «Наука в современном мире» Материалы Международной научно-практической конфе-

ренции, Сборник научных трудов, Москва, 2010, с. 384-386.
9. Проблема взаимосвязи души и тела у Аристотеля / «Духовное наследие и современность» Материалы международной научно-теоретической конференции, Караганда, 2010, с. 66-67
10. General ontologic and axiologic aspects of human being // Turan, Stratejik Araştırmalar Merkezi Uluslararası bilimsel Hakemli Mevsimlik Dergi, Türkiye, №11, 2011, s. 8-13
11. A survey and analysis on man's spirit and body in leipzig's philosophy // Bilimsel Eksen, Üç ayda bir yayımlanan uluslararası hakemli sosyal bilimler dergisi, Türkiye, №3, 2011, s. 36-39
12. Проблема взаимосвязи души и тела у Аристотеля и Декарта: сравнительный анализ // исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов, №2916), ч.1, 2012, Изд-во «Грамота», с. 62-64
13. The context of Human macro-mikrocesmes at the school of mashaism // Journal of Basic and Applied, Australia, 2012, p.9068-9071.
14. The study of reincarnation theory and its critiqnes Based on Empirical, Logical Evidence, and Religions Interpretion. // International Research Journal of Applied abd Basic sciences, London, 2012,p.301-310



**ЗАХРА БАРАТАЛИ КЫЗЫ ГАРАТЕПЕ**

# ПРОБЛЕМА СУЩНОСТИ ЧЕЛОВЕКА С ТОЧКИ ЗРЕНИЯ ШКОЛЫ МАШШАИТОВ

## РЕЗЮМЕ

Философская система машшаизма содержит очень ценные и важные положения о человеке, отношения между духом и телом, суть человеческого бытия, его интерпретация как маленького мира и условия, необходимые для формирования зрелого человека. Научные положения, предложенные машшаизмом о человеке, служат важным идейным и теоретическим источником для формирования культуры, общественного сознания и философии последующего периода.

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении анализируются актуальность выбранной тема, степень ее разработанности, научная новизна и практическая значимость диссертации. Здесь определены цель и задачи исследования, ее научное решение, методологические подходы, использованные в диссертации.

В первой главе нашли свое отражение вопросы формирования машшаизма с конца IX века, развитие фоедализма в этот период, который характеризуется подъемом философской мысли и культуры.

Во второй главе подвергая анализу, основные направления антропологии машшаизма, были рассмотрены общеонтологическое и аксиологические аспекты человеческого бытия, вопросы отношения духа и тела, аспекты своеобразия и гносеологический аспект, место человека в контексте макро- и микрокосма, вопросы моральных качеств человека и проблемы идеального человека.

В заключении даются итоги работы и резюмируются основные моменты диссертации.

**ZAHRA HASSANI GHARETAPPEH**

## THE PROBLEM OF HUMAN NATURE FROM THE POINT OF VIEW OF THE SCHOOL OF MASHSHAI


### SUMMARY

The philosophical system of mashshai contains very precious and important provisions about the human being, relations between the spirit and the body, essence of human being, its interpretation as a small world and conditions required for forming the mature human being. The scientific provisions proposed by the mashshai about the human being served the important ideological and theoretical sources for forming the culture, social consciousness and philosophy of the next periods.

Dissertation work consists of the introduction, two chapters, the conclusion and the list of the used literature.

In introduction the relevance of chosen subject, degree of its readiness, scientific novelty and the mashshai importance of the thesis are analyzed. Here the purpose and research problems, its scientific decision, the methodological approaches used in the thesis are defined.

Questions of formation of a mashshai found the reflection in chapter 1 since the end of the IX century, feudalism development during this period which is characterized by lifting of philosophical thought and culture.

In chapter 2 subjecting to the analysis, the main directions of anthropology of a mashshai, were considered general and ontological and axiological aspects of human life, questions of the relation of mind and body, aspects of an originality and gnoceological aspect, a place of the person in a context macro - and a microcosm, questions of moral qualities of the person and a problem of the ideal person.

In the conclusion results of work are given and thesis highlights are summarized.




**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

*На правах рукописи*

**ЗАХРА БАРАТАЛИ кызы ГАСАНИ ГАРАТЕПЕ**

# ПРОБЛЕМА СУЩНОСТИ ЧЕЛОВЕКА С ТОЧКИ ЗРЕНИЯ ШКОЛЫ МАШШАИТОВ

Специальность: 7207.01 – Социальная философия
7210.01 – История философии

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по философии

**Баку – 2013**